# BÖYÜK AZƏRBAYCANLI

*Təhsil millətin gələcəyidir!*

Heydər Əliyev

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

9 may 2025-ci il №16 (9122) www.muallim.edu.az muallim@media.edu.az

## 10 MAY ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DOĞUM GÜNÜDÜR



## "Mən öz müəllimlərimi həmişə xatırlayıram"



**Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən AZƏRBAYCANLIYAM!**

*Heydər ƏLİYEV, Ümummilli Lider*

**"...Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını dəyişibdir. Ancaq bir müəllimim yaşayır... Adı da Lətif Hüseynzadədir... Mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm. Yadda qalanları da, qalmayanları da var... Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram. Dil-ədəbiyyat müəllimim - Lətif Hüseynzadə... çox gözəl ədəbiyyat dərsi deyirdi...".**

## "Sən elə bir zirvəsən"







# “Mən öz müəllimlərimi həmişə xatırlayıram”

*Heydər ƏLİYEV, Ümummilli Lider*

**“...Mən hər dəfə Naxçıvana gedəndə müəllimlərimi mütləq tapıram, görüşürəm, söhbət edirəm. Təəssüflər olsun ki, mənə dərs deyən insanların, demək olar ki, hamısı dünyasını dəyişibdir. Ancaq bir müəllimim yaşayır... Adı da Lətif Hüseynzadədir... Mən öz müəllimlərimi həmişə xatırlayıram. Bilirsiniz ki, mən böyük həyat yolu keçmişəm, yaşım da az deyildir. Çox şeylər, çox insanlar görmüşəm. Yadda qalanları da, qalmayanları da var... Amma sizə demək istəyirəm ki, ən yadda qalanlar, mənim üçün əziz adamlar Naxçıvandakı müəllimlərimdir. Onların adlarını indiyə qədər xatirimdə saxlayıram. Dil-ədəbiyyat müəllimim - Lətif Hüseynzadə... çox gözəl ədəbiyyat dərsi deyirdi...”.**



# “Heydər Əliyev kimi bir şəxsin müəllimi olduğum üçün özümü xoşbəxt sanıram”

*Lətif Hüseynzadə*

**Yaxşı yadımdadır, 1937-1938-ci tədris ilinin əvvəli idi. Dərslər artıq başlanmışdı. Bir gün Əlirza kişi oğlu Heydərlə bizim texnikuma gəldi. Onda mən texnikumda dil-ədəbiyyat müəllimi və dərs hissə müdiri işləyirdim.**

**1993-cü ilin baharı idi. Heydər Əliyevin 70 yaşı tamam olurdu. Yanına gedib onu təbrik etdim... O vaxt müavinini çağırıb tapşırıq verdi ki, Lətif müəllimin 90 illiyini Naxçıvanda təntənəli qeyd etmək lazımdır. Özüm də məruzəçi olacağam.**

**Bir gün Heydər Əliyevin görüşünə getdim. O, məni görüncə çox sevindi. Mənim sağ-salamat olmağımdan məmnun qaldı. Oturub xeyli söhbət etdik. Keçmiş günləri xatırladıq...**

*- ...Lətif müəllim, xoşbəxt adamsınız ki, Heydər Əliyev kimi böyük bir şəxsiyyətin müəllimi olmusunuz. Heydər Əliyevlə ilk tanışlığınız nə vaxt olub? Ona hansı illərdə dərs demişsiniz?*

- Heydər Əliyevlə ilk tanışlığım onun atası Əlirza kişi ilə işlədiyim pedaqoji texnikuma gəldiyi gündən başladı. O vaxta qədər Heydər Əliyevi görməmişdim.

Yaxşı yadımdadır, 1937-1938-ci tədris ilinin əvvəli idi. Dərslər artıq başlanmışdı. Bir gün Əlirza kişi oğlu Heydərlə bizim texnikuma gəldi. Onda mən texnikumda dil-ədəbiyyat müəllimi və dərs hissə müdiri işləyirdim.

Heydər Əliyev bizim pedaqoji texnikuma gələndə 15-16 yaşı olardı. O, texnikumdan əvvəl Naxçıvandakı beynəlmiləl məktəbdə oxumuşdu. O zamanlar bu məktəbə hər kəs gedə bilməzdi. Orada yalnız qabiliyyətli, istedadlı, mütərəqqi düşüncəli uşaqlar təhsil alırdılar. Bizim texnikumumuza qəbul müəllimlərin müsahibəsi, sual-cavabları ilə həyata keçirilirdi. Atası Əlirza kişi bildirdi ki, oğlum Heydər müəllim olmaq istəyir. Bu, elə mənim də ürəyimdəndir. Qamətli, boy-buxunlu, ilk baxışdan diqqəti cəlb edən gənclə söhbət etdim. Elə ilk dəqiqələrdən onun bilikli, qabiliyyətli olduğunu duydum, ədəbiyyatdan, dildən, tarixdən verdiyim suallara çox gözəl, əhatəli və təmkinlə cavablar verirdi. Xarici görkəmi də müəllimliyə yaraşan idi. Əsl müəllimliyə layiq keyfiyyətləri var idi. Ürəyimdə fikirləşirdim ki, ondan yaxşı müəllim olar. O zaman hər yerdə müəllimlərə ciddi ehtiyac duyulurdu. Onunla qısa müsahibədən sonra direktorun yanına getdik. Direktor Kazım Talıblı idi. Ona bildirdim ki, bu gənci texnikumumuza qəbul etmək lazımdır. Mən onunla müsahibə aparmışam və razı qalmışam. Direktor dedi: “Yaxşı, onda riyaziyyatdan da sual-cavab edib, sonra baxarıq”. O, texnikumun riyaziyyat müəllimi Tofiq Bəktaşini çağırtdırdı. Tofiq müəllim Heydər Əliyevə bir neçə məsələ və misal verdi. Heydər Əliyev çox çəkmədən verilən tapşırıqları səhvsiz yerinə yetirdi. Bəktaşi də məmnunluqla gülümsəyərək öz razılığını bildirdi. Beləliklə, Heydər Əliyevi texnikuma qəbul etdik. Mən elə həmin gün yeni tələbəmizi sinfə aparıb uşaqlarla tanış etdim. Qəbuldan sonra bütün müəllimlər mənimlə söhbətlərində ondan razılıq edir, çox istedadlı, fitri qabiliyyətə malik bir uşaq olduğunu vurğulayırdılar. Mən özüm də bunu dərslərimdə görürdüm. Yaşının az olmasına baxmayaraq, özünü bir şəxsiyyət kimi aparırdı. Qətiyyətli, məqsədyönlü, fəal və təşəbbüskar idi. Elmlərə yiyələnmək həvəsi aşıb-daşırdı. Öz düşüncə tərzi, həyata baxışı ilə hamıdan fərqlənirdi. Çox vaxt qoltuğunda kitablar görərdim.

*- Bir çox dahilərin tərcümeyi-halı göstərir ki, onlar ya orta məktəbdə, ya da texnikum və kolleclərdə, universitetlərdə o qədər də yaxşı oxumamışlar. Bəs Heydər Əliyev necə oxuyurdu?*

- Heydər Əliyev bütün fənləri əla oxuyurdu. Hər bir dərsə səylə hazırlaşır, əlavə materiallarla maraqlanırdı. Tələbələr də onu çox sevir, ona hörmətlə yanaşırdılar. O, dərs danışanda sinfə tam sükut çökürdü. Uşaqlar ona diqqətlə qulaq asırdılar. Gözəl nitqi, ifadəli danışıq tərzi var idi.

Heydər Əliyev heç vaxt tək özünü düşünmürdü. O həmişə yoldaşlarının qayğısına qalır, onların problemləri ilə maraqlanır, ehtiyacı olanlara kömək etməyə çalışırdı. Baxmayaraq ki, özünün də ehtiyacları az deyildi.

Müəllimlər hamısı ona hörmət qoyur, çox sevirdilər. Tələbələrindən söz açanda Heydərdən daha çox danışırdılar. Tofiq Bəktaşi deyirdi ki, ondan yaxşı riyaziyyatçı olacaq, onda riyazi təfəkkür çox yüksəkdir. Tarix müəllimi bildirirdi ki, Heydər tariximizi dərindən öyrənir, ciddi maraqlanır, o, yaxşı tarixçi olacaq. Mən isə fikirləşirdim ki, Heydər Əliyev ən yaxşı ədəbiyyatçı, dilçi olacaq. İfadəli, aydın, səlis nitqi, gözəl xətti, savadlı yazısı var idi. Bədii təfəkkürü də çox yüksək idi. Həmişə mütaliə edirdi. Ən çətin ərəb və fars sözlərini belə düzgün tələffüz edir və yerində də düzgün işlədirdi.

*- Sonralar Heydər Əliyevlə əlaqə saxlamısınızmı? Ümumiyyətlə, onunla neçə dəfə görüşmüsünüz?*

- Texnikumdan sonra Heydər Əliyevlə uzun müddət görüşə bilmədim. Bildiyimiz kimi, Moskvada, Sankt-Peterburqdakı təhsilindən sonra o, Azərbaycana gəldi, müxtəlif yüksək vəzifələrdə çalışdı. Sovetlər dövründə Azərbaycanın rəhbəri oldu. İrəli çəkilərək Sovet dövlətinin ən yüksək rəhbər vəzifələrindən birinə təyin edildi. Tarixdə ilk dəfə olaraq türk-müsəlman SSRİ kimi super dövlətin başında duranlardan biri oldu... Amma ona qibtə edənlər, paxıllıq edənlər, düşmən mövqeyində duranlar da tapıldı. Heydər Əliyev yenidən Naxçıvana - doğma elinə, yurduna, torpağına qayıtmalı oldu...

Bir gün Heydər Əliyevin görüşünə getdim. O, məni görüncə çox sevindi. Mənim sağ-salamat olmağımdan məmnun qaldı. Oturub xeyli söhbət etdik. Keçmiş günləri xatırladıq...

1993-cü ilin baharı idi. Heydər Əliyevin 70 yaşı tamam olurdu. Yanına gedib onu təbrik etdim. O da bildi ki, mənim də 90 yaşım tamam olur. O vaxt müavinini çağırıb tapşırıq verdi ki, Lətif müəllimin 90 illiyini Naxçıvanda təntənəli qeyd etmək lazımdır. Özüm də məruzəçi olacağam. Amma iş elə gətirdi ki, Azərbaycanda məlum hadisələr nəticəsində Heydər Əliyev respublika rəhbərliyinə dəvət olundu.

Böyük öndərlə bir görüşüm də Naxçıvan MR-in 75 illik yubileyində olub. Heydər Əliyev bu barədə fərman vermişdi. Yubiley tədbirinə özü gəldi. Təntənəli mərasimdə çıxış edərək müəllimlərini xatırladı. Mənim adımı birinci çəkdi, böyük təvazökarlıq və sadəlik nümunəsi göstərərək mənim əməyimə yüksək qiymət verdi və məni özünün ən sevimli müəllimi adlandırdı...

Heydər Əliyevlə son görüşüm 2002-ci il avqustun 12-də oldu. Prezident Heydər Əliyevin fərmanı ilə Naxçıvanda Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan bölməsi təşkil edilirdi. Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda bölmənin yaradılmasına həsr olunmuş müşavirədə görüşdük.

...Cənab Heydər Əliyev bu müşavirədə də mənim fəaliyyətim haqqında xeyli danışdı. Əməyimə yüksək qiymət verdi. Mənim anadan olmağımın 100, elmi-pedaqoji fəaliyyətimin 80 illiyinin keçirilməsi haqqında Naxçıvan MR Ali Məclisinə göstəriş verdi. Onun mənə göstərdiyi bu qayğı və diqqəti heç vaxt unuda bilmərəm...

**Müsahibəni apardı: Yusif ƏLİYEV,**
*“Azərbaycan müəllimi”, 9 may 2007-ci il*



## Prezident İlham ƏLİYEV:

# Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq

“Sovet dövründə Azərbaycanda 5 minə yaxın vyetnamlı təhsil alıb, onların bir çoxu hazırda Vyetnamın dövlət orqanlarında məsul vəzifələr tutur.

“Azərbaycan müəllimi” xəbər verir ki, bunu Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasının “Vietnam News Agency” agentliyinə müsahibəsində deyib.

Dövlət başçısı bildirib ki, mənim 2014-cü ildə Hanoya səfərim zamanı Azərbaycan ali məktəblərinin vyetnamlı məzunları ilə görüş oldu, onlar ölkəmiz və burada keçirdikləri illərlə bağlı səmimi sözlər ifadə etdilər:

“2015-ci ildə Hanoyda Azərbaycan ali məktəblərinin məzunlarını birləşdirən Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası təsis edildi”.

Prezident İlham Əliyev müsahibəsində həmçinin qeyd edib ki, Heydər Əliyev Fondu 2018-ci ildə Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, Vyetnamda fəal surətdə layihələr həyata keçirir:

“Bu ilin aprelində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ölkənizə səfəri çərçivəsində vitse-prezident Vo Ti An Suan, Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsi Baş katibinin xanımı No Fon Li, yaradıcılıq sənayesinin nümayəndələri, Hanoy Ticarət və Turizm Kollecinin rəhbərləri, həmçinin Azərbaycanda təhsil almış vyetnamlı məzunlarla görüşüb. Görüş çərçivəsində Hanoy Ticarət və Turizm Kollecinə Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bağlı sertifikat təqdim edilib. Beləliklə, Azərbaycanla Vyetnam arasında münasibətlər bütün əsas sahələr üzrə uğurla inkişaf edir.

...Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq. Onlar Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramlarından istifadə edə bilərlər. Bu, akademik mübadilə, elmi tədqiqatlar və Azərbaycanla Vyetnam arasında şəxsi təmasların möhkəmləndirilməsi üzrə imkanları yaxşılaşdıracaq. Mübadilə proqramlarının reallaşdırılması, həmçinin elmi-texniki sahədə əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafı üçün daha bir perspektivli istiqamətə çevrilə bilər”.

# Azərbaycanın Birinci vitse-prezidenti Mərakeşin xanım Şahzadəsi ilə görüşüb

## Ölkəmiz İslam həmrəyliyinin gücləndirilməsi, müsəlman dövlətləri arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verir



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və qızı Leyla Əliyeva mayın 5-də ölkəmizdə səfərdə olan Mərakeş Krallığının xanım Şahzadəsi Lalla Hasnaa ilə görüşüblər.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edilib, Azərbaycan və Mərakeş arasında tarixi, mədəni və dini yaxınlığa əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin mövcud olduğu vurğulanıb.



Ölkələrimizin beynəlxalq təşkilatlar, o cümlədən BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində uğurlu əməkdaşlığı qeyd edilib.

Görüşdə digər istiqamətlərlə yanaşı, humanitar və mədəni sahələrdə münasibətlərin genişləndirilməsi üçün böyük potensialın olduğu bildirilib. Bu xüsusda, Azərbaycan Mədəniyyət Günlərinin Mərakeşdə, Mərakeş Mədəniyyət Günlərinin isə ölkəmizdə keçirilməsi məmnunluqla xatırlanıb, həmin tədbirlərin xalqlarımızın zəngin mədəniyyəti ilə qarşılıqlı şəkildə yaxından tanış olmasına geniş imkan yaratdığı qeyd edilib.

Azərbaycanın mənzil-qərargahı Mərakeşdə yerləşən ICESCO ilə əməkdaşlığına toxunulub, bu il Bakıda ICESCO-nun ölkəmizdə regional ofisinin yaradıldığı vurğulanıb. Ölkəmizin İslam həmrəyliyinin gücləndirilməsi, müsəlman dövlətləri arasında təhsil, elm və mədəniyyət sahələrində əməkdaşlığın inkişafına xüsusi əhəmiyyət verdiyi qeyd olunub.

Söhbət zamanı Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Mərakeşə səfəri və bu çərçivədə keçirilmiş görüşlər xatırlanıb. Həmin görüşlərdə Heydər Əliyev Fondunun sosial sahədə fəaliyyəti, uşaqlara qayğı ilə bağlı məsələlərin müzakirə edildiyi vurğulanıb.

Xanım Şahzadə Lalla Hasnaanın ölkəmizə səfərinin onun Azərbaycanla daha yaxından tanış olması baxımından yaxşı imkan yaradacağına və əlaqələrimizin inkişafına töhfə verəcəyinə ümidvarlıq ifadə olunub.

# Mərakeş Krallığının Şahzadəsi 132-134 nömrəli Təhsil Kompleksində olub

Mayın 7-də Rabat Mədəni İrsinin Qorunması Fondunun prezidenti, Mərakeş Krallığının Ülyahəzrətləri Şahzadə Lalla Hasnaa Azərbaycana işgüzar səfəri çərçivəsində 132—134 nömrəli Təhsil Kompleksini ziyarət edib.





Tədbirdə elm və təhsil naziri Emin Əmrullayev, mədəniyyət nazirinin müavini Murad Hüseynov, Heydər Əliyev Fondunun Beynəlxalq əlaqələr departamentinin rəisi, millət vəkili Soltan Məmmədov, Mərakeş Krallığının gənclər, mədəniyyət və kommunikasiya naziri Mohammed Mehdi Bensaid, Mərakeş Krallığının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Adil Embarş, Rabat Mədəni İrsinin Qorunması Fondunun Baş katibi Nouzha Alaoui, eləcə də digər rəsmilər və məktəb kollektivi iştirak ediblər.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev qeyd edib ki, bu gün UNESCO-nun Assosiativ Məktəblər Şəbəkəsinin üzvü olan 132—134 nömrəli Təhsil Kompleksi ilə Rabatın Oum El Banine məktəbi arasında başlayan qardaşlaşma proqramı mədəni mübadilə, ortaq dəyərlər və təhsil əməkdaşlığına əsaslanan yeni bir mərhələnin əsasını qoyur. Nazir vurğulayıb ki, Rabat Mədəni İrsinin Qorunması Fondu, Heydər Əliyev Fondu, Elm və Təhsil Nazirliyi və Mədəniyyət Nazirliyinin birgə tərəfdaşlığı ilə həyata keçirilən bu təşəbbüs növbəti tədris ilindən etibarən Bakının və Rabatın beş məktəbini əhatə edəcək. Nazir bildirib ki, bu təşəbbüs şagirdləri mədəni irslərini araşdırmağa, qorumağa və paylaşmağa təşviq etməklə yanaşı, onlar arasında mədəni dialoqu gücləndirəcək.

Səfər çərçivəsində şagirdlər tərəfindən qardaşlaşma proqramının təməli olan “Mən irsimi kəşf edirəm — Bakı” adlı təhsil proqramı təqdim olunub. Eyni zamanda, Rabatın Oum El Banine məktəbinin şagirdləri tərəfindən ünvanlanan videomesaj nümayiş etdirilib.



Səfər çərçivəsində Şahzadə sinif otaqlarında tədris prosesi ilə də tanış olub, şagirdlərlə söhbət edib və onların təqdimatlarını dinləyib. Eyni zamanda, məktəbin Tarix Muzeyi təqdim olunaraq Azərbaycan tarixi barədə məlumat verilib.

Tədbir şagirdlər tərəfindən hazırlanan Rabat və Bakı şəhərlərinin görkəmli abidələrinə həsr olunmuş rəsmlərin sərgisi, musiqili konsert proqramı və xatirə şəkillərinin çəkilməsi ilə yekunlaşıb.

# ƏBƏDİYAŞAR LİDER



## Fəxri xiyaban ziyarət edilib

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə Elm və Təhsil Nazirliyinin kollektivi mayın 8-də Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət edib, önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad edib.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

## Ulu Öndər Heydər Əliyevin 102 illik yubileyi Elm və Təhsil Nazirliyində qeyd edilib





Mayın 8-də Elm və Təhsil Nazirliyində Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının Elm və Təhsil Nazirliyi ərazi üzrə ilk partiya təşkilatının Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbiri keçirilib.

Tədbir "Heydər Əliyev və Azərbaycan təhsili" adlı videoçarxın nümayiş etdirilməsi ilə başlayıb.

Heydər Əliyevin uzaqgörən dövlətçilik və idarəçilik siyasətinə toxunan elm və təhsil nazirinin müavini Firudin Qurbanov Ümummilli Liderin Azərbaycanda dövlət quruculuğu, siyasi sabitliyin təmin edilməsi, ölkənin beynəlxalq nüfuzunun gücləndirilməsi, təhsil və digər sahələrin inkişafı baxımından müstəsna xidmətləri barədə danışıb. Firudin Qurbanov Ulu Öndərin müəyyən etdiyi inkişaf strategiyasının, təhsil sahəsinə göstərdiyi yüksək diqqətin bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb.

Çıxış edən Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev, nazirliyin Maliyyə şöbəsinin müdiri, Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının Elm və Təhsil Nazirliyi ərazi partiya təşkilatının sədri Rauf Orucov, Bakı Dövlət Universitetinin kafedra müdiri Azad Rzayev və digər qonaqlar Ulu Öndərin Azərbaycanda dövlət quruculuğu, müstəqilliyimizin bərpası və ölkəmizin dünya miqyasında tanınması baxımından misilsiz xidmətləri barədə fikirlərini bölüşüblər.

Çıxışlardan sonra Elm və Təhsil Nazirliyi Ərazi üzrə Partiya Təşkilatının İdarə heyətinin yeni üzvlərinə biletlər təqdim edilib və uğurlar arzulanıb.

## "Sən elə bir zirvəsən"

### Respublika ifa müsabiqəsinin yekun konserti keçirilib

Elm və Təhsil Nazirliyinin dəstəyi, Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin təşkilatçılığı ilə Rəşid Behbudov adına Dövlət Mahnı Teatrında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Sən elə bir zirvəsən" respublika ifa müsabiqəsinin yekun konserti keçirilib.

Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədrinin müavini Aynur Sofiyeva, professor Dilarə Seyidzadə, millət vəkilləri, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Konsertdə tələbələrin ifasında Ümummilli Liderə həsr edilmiş, həmçinin onun sevdiyi mahnılar, şeirlər səsləndirilib, rəqs kompozisiyaları nümayiş olunub.

Müsabiqədə I, II və III yerlərə layiq görülən tələbələrə Elm və Təhsil Nazirliyi tərəfindən fəxri fərman və hədiyyələr təqdim olunub.

Fevral-may aylarında keçirilən müsabiqəyə Elm və Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən peşə və orta ixtisas təhsili müəssisələrindən "Şeir", "Azərbaycan bəstəkarlarının estrada mahnıları", "Kollektiv ifa", "Təsnif və xalq mahnıları", "Rəqs" nominasiyaları üzrə 1000-ə yaxın tələbə qatılıb, 32 peşə təhsil müəssisəsindən 94, 26 orta ixtisas təhsili müəssisəsindən 113 olmaqla, ümumilikdə 207 tələbə respublika mərhələsinə vəsiqə qazanıb. Mədəniyyət və incəsənət xadimləri tərəfindən 5 nominasiya üzrə 125 nəfər qalib müəyyən olunub.

Qeyd edək ki, müsabiqənin keçirilməsində məqsəd Ulu Öndər Heydər Əliyevin ölkəmizin müstəqilliyinin qorunub möhkəmləndirilməsində, demokratik, hüquqi dövlətin qurulmasında və onun hərtərəfli inkişafında misilsiz xidmətlərini gənclərə aşılamaq, həmçinin gənclərin asudə vaxtlarını səmərəli təşkil etmək, istedad və bacarıqlarını üzə çıxarmaq, onlarda nitq mədəniyyətinə, bədii ifaçılığa, şeirə və incəsənətə olan marağı artırmaqdan ibarət olub.








# ADNSU-da Vyetnamın ilk Prezidenti Ho Şi Minin 135 illiyinə həsr edilmiş Memorial otağın açılışı olub

Mayın 8-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) Vyetnamın görkəmli siyasi xadimi, ilk Prezidenti Ho Şi Minin anadan olmasının 135 illiyinə həsr olunmuş və Vyetnam-Azərbaycan əməkdaşlığını əks etdirən Memorial otağın açılış mərasimi keçirilib.





Tədbir Azərbaycan ilə Vyetnam arasında tarixi dostluq münasibətlərinin və enerji sahəsində əməkdaşlığın rəmzi olaraq təşkil olunub.

Mərasimdə energetika naziri Pərviz Şahbazov, elm və təhsil naziri Emin Əmrullayev, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova, SOCAR-ın vitse-prezidenti Kənan Nəcəfov, Energetika Nazirliyinin Aparat rəhbəri Zaur Məmmədov, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) rektoru Rüfət Əzizov, həmçinin hər iki ölkənin dövlət və hökumət rəsmiləri, elm və təhsil sahəsinin nümayəndələri, eləcə də ali təhsil müəssisəsinin professor-müəllim heyəti və tələbələri iştirak ediblər.

Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam, energetika naziri Pərviz Şahbazov, "PetroVietnam" şirkətinin Müşahidə Şurasının sədri Le Mahn Hung çıxış edərək Azərbaycan-Vyetnam münasibətlərinin tarixi əsaslarından, enerji sahəsindəki birgə layihələrdən və Ho Şi Minin siyasi irsinin bu münasibətlərə təsirindən danışıblar.

Çıxışlar zamanı Ho Şi Minin xalqlar arasında dostluğun və həmrəyliyin təşəkkülündə oynadığı rol vurğulanıb. Ardınca Memorial otağın açılışı olub.

Memorial otağın ekspozisiyasında Ho Şi Minin həyat və fəaliyyətini əks etdirən materiallar, eləcə də Azərbaycan ilə Vyetnam arasında neft və qaz sənayesində əməkdaşlığa dair tarixi sənədlər yer alıb.

Tədbir çərçivəsində otağa baxış keçirilib, nümayəndələr birgə xatirə şəkli çəkdiriblər. Sonda tədbirin əhəmiyyəti vurğulanaraq belə təşəbbüslərin iki ölkə arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verdiyi bildirilib.

## Nazir müavini Azərbaycan nümayəndə heyətinin tərkibində Suriya Ərəb Respublikasında səfərdə olub



İki ölkənin təhsil müəssisələri arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib

Baş nazirin müavini Samir Şərifovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti mayın 4-də Suriya Ərəb Respublikasında səfərdə olub. Elm və Təhsil Nazirliyini nümayəndə heyətinin tərkibində nazir müavini Kənan Kərimzadə təmsil edib.

Səfər Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Suriyanın bərpasına, inkişafına dəstək və bu ölkənin hazırkı keçid hökuməti ilə müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, enerji, mədəniyyət və təhsil sahələrində əməkdaşlıq imkanlarını araşdırmaq məqsədi daşıyıb.

Səfər çərçivəsində Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa Azərbaycan nümayəndə heyətini qəbul edib.

Tərəflər görüş zamanı həmçinin Suriyanın qədəm qoyduğu bərpa və yenidənqurma prosesinə Azərbaycan Respublikasının mümkün dəstəyinin istiqamətlərinə dair fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində elm və təhsil nazirinin müavini Kənan Kərimzadə Suriya Ərəb Respublikasının ali təhsil naziri Mərvan əl-Hələbi ilə görüşüb. Görüş zamanı iki ölkənin təhsil müəssisələri arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

## Nazir müavini Vyetnamın təhsil və təlim nazirinin müavini ilə görüşüb



Mayın 7-də elm və təhsil nazirinin müavini Həsən Həsənli Vyetnam Sosialist Respublikasının təhsil və təlim nazirinin müavini Nguyen Van Phuc ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

## Vətəndaş müraciətlərinin statistikası

Aprelin 15-dən 30-dək Elm və Təhsil Nazirliyi, eləcə də qurumlarına 24 510 vətəndaş müraciəti daxil olub. Müraciətlərin 16 584-ü çağrı mərkəzləri, 3 315-i elektron, 1 114-ü isə yazılı formada yönləndirilib. Həmçinin vətəndaş qəbulu zamanı 3 497 müraciət qeydə alınıb. Müraciətlər xarici diplomların tanınması, müəllimlərin işə qəbulu, təhsil tələbə kreditinə müraciət, birinci sinfə qəbul və digər məsələlərlə bağlı olub.




## Nazir müavini "Sərhəd" hərbi-idman oyununun yekunu ilə bağlı keçirilmiş tədbirdə iştirak edib

Mayın 5-də Dövlət Sərhəd Xidmətinin "Lənkəran" sərhəd dəstəsində "Sərhəd" hərbi-idman oyununun başa çatması münasibətilə tədbir keçirilib.



Tədbirdə elm və təhsil nazirinin müavini Firudin Qurbanov, eləcə də Dövlət Sərhəd Xidməti, Gənclər və İdman Nazirliyinin rəsmiləri çıxış edərək qalib komandaları təbrik edib, bu cür yarışların gənclərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı altında ərazi bütövlüyü və suverenliyi tam bərpa olunan Vətənimizin hər yerində qürurla dalğalanan şanlı Zəfər bayrağımıza, toxunulmaz sərhədlərimizə məhəbbət hissinin aşılanmasında, sərhədçi peşəsinə marağın artırılmasında mühüm rol oynadığını qeyd ediblər.



Xüsusi vurğulanıb ki, sərhəd qoşunları daim döyüşə hazır vəziyyətdədir. Sərhəd həmişə atəşə hazır tətiklə müqayisə olunur. İnsan burada hansı sahəyə təyin olunursa-olunsun, xidmət şəraiti onun möhkəmliyini və özünə nəzarət qabiliyyətini mütləq sınayacaq. Gündəlik fəaliyyətlərində sərhədçilər dövlət sərhədini, cəmiyyəti və dövləti cinayətkar niyyətlərdən qoruyur və Vətənin sərhədlərinin hər hansı pozuntusuna dərhal reaksiya verməyə daim hazırdırlar.

Sülh dövründə hər bir sərhədçi əsgərdən vətəni qorumaq üçün dərin anlayış və şəxsi məsuliyyət tələb olunur. Biz isə geniş Vətənimizin bütün insanları - sərhədçiləri "əsgər" adlandırırıq və bu sözə rahatlığımızı, sevgimizi və qürurumuzu qatırıq!

"Bütün xalq sərhədi qoruyur" şüarı gənc qəlblərdə ən səmimi cavab doğurmuşdur.

Azərbaycan Sərhəd Mühafizəsinin 106-cı ildönümünə həsr olunmuş və ümumilikdə üç mərhələdə keçirilmiş yarışlarda 45 rayondan 165 məktəbin 825 şagirdi iştirak edib, ilk iki mərhələnin yekunlarına görə 11 komanda aprel ayının 28-dən may ayının 5-dək final mərhələsində mübarizələrini davam etdirib.

Komandalar "Sərhəd pozucusunun yaxalanması və təxliyə edilməsi", "Ləpirçilik", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitəsinə baxışın keçirilməsi", "Maskalanma", "Yaralılara yardımın göstərilməsi və təxliyə olunması", "Avtomatın sökülməsi və yığılması", "Sıra hazırlığı", "Tək əsgərin döyüşdə hərəkət üsulu" və "Hərbiləşdirilmiş estafet" üzrə bilik və bacarıqlarını nümayiş etdiriblər.

Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər sərhədçilərin xidməti və məişət şəraiti ilə tanış olub, onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil edilib, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları keçirilib.

Final mərhələsinin yekunlarına görə Cəlilabad rayonunun "Ləkin" komandası birinci, Qusar rayonunun "Zeyxur" komandası ikinci, Mingəçevir şəhərinin "Qartal" komandası isə üçüncü yeri tutub.

Tədbirin sonunda qaliblərə kubok, medal, diplom və qiymətli hədiyyələr, oyunlarda fəal iştirak etmiş komandalara isə həvəsləndirici mükafatlar təqdim edilib.

## Dövlət Proqramı təqaüdçüsü



Son illərdə azərbaycanlı gənclərin dünyanın müxtəlif ölkələrində nüfuzlu universitetlərdə təhsil alması ölkəmizdə əmək bazarının müasir bilik və səriştələrə malik peşəkarlarla təmin olunmasında xüsusi əhəmiyyət kəsb etməkdədir. Uğurla davam etdirilən xaricdə təhsil üzrə dövlət proqramları sürətli dəyişikliklər dövründə ölkəmizin davamlı inkişafının başlıca hərəkətverici qüvvəsi hesab olunan insan kapitalının formalaşmasında mühüm əhəmiyyət daşıyır. “Azərbaycan müəllimi” qəzetinin növbəti müsahibi “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı” xətti ilə ABŞ-nin Kolumbiya Universitetində “İdarəetmə elmləri və mühəndislik” ixtisası üzrə magistratura təhsili alan Təhminə Mehtiyevadır.

# “Əcnəbilər dövlət hesabına təhsil aldığımı biləndə çox təəccüblənirlər”

*Təhminə MEHTİYEVA*

## “Kolumbiya Universitetində təhsil almağım yalnız Dövlət Proqramı sayəsində mümkün oldu”

*- Sizi oxucularımıza necə təqdim edək?*

- Rusiyanın uzaq şərqində yerləşən Amur vilayətində anadan olmuşam və uşaqlıq illərimi ibtidai təhsilimi bitirənə qədər orada keçirmişəm. Daha sonra ailəmlə Azərbaycana gəldik. 5-9-cu sinifləri Sumqayıt şəhərinin 11 nömrəli tam orta məktəbində tamamladıqdan sonra ailəmlə Bakıya köçdük. 10-11-ci sinifləri isə Bakıda yerləşən 200 nömrəli Məktəb-Lisey Kompleksində bitirdim və 2016-cı ildə “əla” qiymətlərlə məzun oldum. Həmin il qəbul imtahanında 696 bal toplayaraq Prezident təqüdçüsü oldum və ADA Universitetinin Biznesin idarə edilməsi fakültəsinə qəbul edildim. Burada bakalavr təhsilimi aldım və 2020-ci ildə qırmızı diplomla məzun oldum. Dörd ilə yaxın müddət ərzində yerli və xarici şirkətlərdə texniki məhsulların yaradılması və idarə olunması ilə bağlı təcrübə qazandım. Hazırda ABŞ-nin Nyu-York şəhərində Kolumbiya Universitetində İdarəetmə elmləri və mühəndislik üzrə magistr təhsilimi davam etdirirəm.

### “Uğurlarıma ailəmin və müəllimlərimin çox böyük təsiri olub”

*- Orta məktəbdə uğurlarınız. Hansı fənlərlə daha çox maraqlanardınız? Məktəbinizin, müəllimlərinizin sizin uğurlu gənc kimi formalaşmağınızda rolu haqqında nə deyə bilərsiniz?*

- Mənim təhsil uğurlarıma ailəmin və müəllimlərimin çox böyük təsiri olub. Mən və iki bacım çox erkən yaşlardan ailəmiz tərəfindən yüksək vətənpərvərlik və zəhmətkeşlik dəyərləri ilə böyüdülmüşük. Yaxşı yadımdadır ki, Rusiyada orta məktəbdə oxuyarkən mən sadəcə şəxsi ambisiyalarıma görə yox, həm də Azərbaycanı təmsil etdiyimi düşündüyüm üçün bütün uşaqlardan daha müvəffəqiyyətli olmağa çalışırdım. Sumqayıt illərində isə mənim bütün fənlərə marağım, dəqiq elmlərdə isə xüsusi istedadımın olduğu ortaya çıxdı. O illərdə sinif rəhbərim olan fizika və riyaziyyat müəlliminin mənim həyatımda çox özəl rolu olub. Nə qədər çox məktəb dəyişsəm də, qarşıma hər zaman mənə ilham verən və uzaqgörən müəllimlər çıxıb. Buna görə özümü çox şanslı hesab edirəm.

### “Tələbələr bunu eşidəndə çox təəccüblənir”

*- Xaricdə Dövlət Proqramı ilə tanışlığınız nə vaxt başladı və xaricdə təhsil almağa maraq nədən qaynaqlandı? Təhsilinizdə proqramın rolu, əhəmiyyəti haqqında nə deyə bilərsiniz? Bu proqram sizin üçün hansı imkanları yaratdı?*

- Hələ məktəbdə oxuyarkən Dövlət Proqramı vasitəsilə xaricdə təhsil alan tələbələr haqqında çox eşidirdim. Buna görə 2022-ci ildə Dövlət Proqramı yenidən başlayanda gələcəkdə magistr təhsilimi maliyyələşdirmək üçün variantlarımın arasında Dövlət Proqramını artıq nəzərə alırdım. Kolumbiya Universiteti kimi nüfuzlu ABŞ ali məktəbləri çox yüksək təhsil haqları ilə fərqlənir. Belə bir universitetdə tam təqaüdlə təhsil almaq mənim üçün yalnız Dövlət Proqramı sayəsində mümkün oldu.

*- Xaricdə təhsil alan gənc kimi ölkəmizdə gənclər üçün yaradılan təhsil imkanları barədə fikirlərinizi bölüşərdiniz.*

- Maraqlı bir faktdır ki, mənim proqramımda məndən başqa yalnız iki qazaxstanlı tələbənin təhsil xərcləri öz dövləti tərəfindən qarşılanır. Dünyanın bir çox ölkəsindən gələn digər bütün tələbələr bunu eşidəndə çox təəcüblənir və öz ölkələrində belə imkanların olmadığını bildirir. Bunu öyrənəndə Azərbaycanın öz vətəndaşları üçün yaratdığı təhsil imkanlarının miqyasını daha da yaxşı dərk etdim.

### “Kolumbiya Universiteti mənim üçün ən doğru seçim idi”

*- Kolumbiya Universiteti və xüsusən də “Management Science and Engineering” ixtisası haqqında nə deyə bilərsiniz? Bu ixtisasa olan marağınız nə ilə bağlıdır?*

- Bakalavr təhsilimi biznes üzrə almağıma baxmayaraq, işləməyə başlayanda çox tez anladım ki, mənim məhz texniki məhsul layihələrinə marağım var. Proqram təminatı məhsullarının idarəsi, UX/UI dizayn, müxtəlif proqramlaşdırma dilləri kimi mövzuları öz səylərimlə müxtəlif mənbələrdən öyrənməyə başladım. Bu yeni biliklər mənə növbəti texniki layihələrdə iş imkanları gətirdi. Anladım ki, hazırda çox sürətlə inkişaf edən texnologiyalardan istifadə edən fərqli profilli mühəndislər və dizaynerlərdən ibarət komandaların ortaya keyfiyyətli məhsul qoymağının əsas şərtlərindən biri onları həm biznes, həm texnoloji hədəfləri başa düşən rəhbərlərin idarə etməyidir. Buna görə magistr təhsilimi almaq üçün həm biznes, həm də mühəndisliyi əhatə edən bir proqram axtarırdım. Kolumbiya Universitetinin İdarəetmə elmləri və mühəndislik proqramı isə məhz bunu təklif edir. ABŞ-də bir neçə universitetdən bənzər proqramlara qəbul aldım. Bunların arasında seçim edərkən universitetin ümumi reytinqi, müəllim heyəti, qəbul olduğum proqramın dərslərinin hədəflərimə uyğun olması və məzun olmuş tələbələrin sonraki iş təcrübələrində mənim hədəflədiyim ixtisaslarda işləyib-işləməməyinə diqqət göstərirdim. Bütün bu meyarlar üzrə Kolumbiya Universiteti mənim üçün ən doğru seçim idi.

### ““Microsoft”da təcrübə proqramında iştirak edəcəyəm”

*- Kolumbiya Universitetinin tədris mühiti, professor-müəllim münasibətləri barədə nə deyərdiniz? Kolumbiya tələbəsi öz təhsilindən nə dərəcədə məmnundur?*

- Kolumbiya Universitetinin əsas xüsusiyyətlərindən biri Nyu-Yorkun mərkəzi Manhattanda yerləşməyidir. Həm iqtisadiyyat, həm texnologiyalar nöqteyi-nəzərindən dünyanın ən canlı yerlərindən birində olmaq xüsusi imkanlar yaradır. Məsələn, “Google” və “Amazon” kimi şirkətlərdə rəhbərlik vəzifələrində olan professorların səhər işə gedib, axşam isə dərsdə bizlərə həmin aparıcı şirkətlərdə baş verən yeniliklər və bütün dünya üçün ən aktual məsələlər haqqında danışmağı, düşünürəm ki, xüsusi bir imtiyazdır. Bundan əlavə, dərslərimizin çərçivəsində tələbələrin də real şirkətlərlə müxtəlif layihələr üzərində işləmək imkanı olur. Məsələn, mən və komanda yoldaşlarım bu tədris ili ərzində “Kering” və “Gates Foundation” kimi qlobal şirkətlərlə strateji konsaltinq layihələri üzərində birgə uğurlu fəaliyyət göstərmişik. Bu yay isə dünyanın qabaqcıl texnologiya şirkətlərindən olan “Microsoft”da Texniki Proqram İdarəsi üzrə təcrübə proqramında iştirak edəcəyəm. İnanıram ki, bu nailiyyətimin səbəbləri arasına Kolumbiya Universitetində oxumağımın da böyük rolu olub.

### “Professorun saatlarla mühazirə oxuduğu, tələbələrin isə sadəcə qulaq asdığı dərs formatı...”

*- Xaricdə təhsil təcrübənizə (Kolumbiya Universiteti nümunəsində) əsaslanaraq müşahidə etdiyiniz nə kimi ənənələri ölkəmizin universitetlərində görmək istərdiniz?*

- Bakalavr təhsilimi aldığım ADA Universitetində beynəlxalq standartlara uyğun və xüsusilə Avropa və ABŞ universitetlərindəki dərslərə çox bənzər format və materiallar istifadə olunduğu üçün sistemlər arasında ciddi fərq olduğunu deyə bilmərəm. Lakin ölkəmizin digər universitetlərində tətbiq edilməyini görmək istədiyim bu kimi praktikalar haqqında danışa bilərəm. Kolumbiya Universitetində, xüsusilə magistr proqramlarında dərslərin çoxunu tələbənin özünün seçmək imkanı var və buna görə də tələbə yalnız ona həqiqətən çox maraqlı və gələcəkdə lazım olacaq dərsləri özü istədiyi professorlardan götürə bilir. ABŞ-də müşahidə etdiyim digər bir uğurlu metod dərslərin çox interaktiv şəkildə aparılmasıdır. Burada yalnız professorun saatlar ərzində mühazirə oxuduğu, tələbələrin isə sadəcə qulaq asdığı dərs formatı, demək olar ki, heç istifadə olunmur. Əksinə, dərslər çox maraqlı dialoqlar şəklində aparılır. Bu sayədə tələbələr yalnız professorun yox, həm də bir-birinin təcrübələrindən faydalanmış olur. Son olaraq, mövzuların tətbiqinə əsaslanan tapşırıqlara üstünlük vermək burada gördüyüm çox uğurlu öyrənmə metodlarındandır. Xüsusilə mühəndislik və biznes kimi sənayeyə yaxın olan ixtisaslarda praktik layihə şəklində tapşırıqlar tələbələrə ənənəvi akademik referat və ya nəzəri imtahanlardan çox daha uzunmüddətli və həqiqi bilik və bacarıqlar verir.

### “Gənclərə magistr təhsilindən əvvəl iş təcrübəsi qazanmağı tövsiyə edərdim”

*- Xaricdə təhsil almaq istəyən gənclərə nə kimi tövsiyələriniz olardı?*

- Xaricdə təhsil almaq istəyən gənclərə məsləhət görərdim ki, ali məktəblərə və daha sonra Dövlət Proqramına müraciətlərinə mümkün qədər tez başlasınlar. Ali məktəblərin tələb etdiyi imtahanlar, tövsiyə məktubları və digər tələbləri yüksək keyfiyyətlə yerinə yetirmək üçün vaxt tələb olunur. Dövlət Proqramını nəzərə alanlara onun şərtləri ilə, dəstəklədiyi universitet və ixtisaslarla hələ proqram seçimi zamanı yaxından tanış olmağı, müraciət hazırlıqları müddətində bu sahədə təcrübəsi olan kimləsə məsləhətləşməyi tövsiyə edərdim. Xaricdə magistr təhsillərini almağı planlayanlara öncə bacardıqları qədər iş təcrübəsi qazanmağı tövsiyə edərdim. Bu, onlara magistr ixtisası seçimində daha uzaqgörən və doğru qərar verməyə kömək edə bilər. Ən önəmlisi isə, özünüzə güvənmək və bacarana qədər cəhd etməkdir. İnanıram ki, ölkəmizdə təhsil keyfiyyətinin getdikcə yüksəlməyi tələbələrimizin xarici ali məktəblərə qəbul imkanlarını ciddi şəkildə artırır.

*- Gələcək hədəfləriniz barədə nə deyərdiniz?*

- Təhsilimi bitirdikdın sonra texnologiya sektorunda işləməyə davam edəcəyəm. Beynəlxalq şirkətlərdə məhsul və layihə idarəçiliyinin ən aktual bacarıqlarını öyrənib təcrübəmi genişləndirmək istəyirəm. Daha sonra bu təcrübələrin ölkəmizin şirkətlərində tətbiqinə dəstək olmağı hədəfləyirəm.

**Oruc MUSTAFAYEV**

# Birgə əməkdaşlıq tədris və tədqiqat fəaliyyətinə töhfə verəcək



## Qarabağ Universitetinin nümayəndə heyəti Ağdam Sənaye Parkında olub

Qarabağ Universitetinin nümayəndə heyəti Ağdam Sənaye Parkına səfər edib. Səfər çərçivəsində İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyi və Ağdam Sənaye Parkının məsul əməkdaşları ilə görüş keçirilib. Görüşdə potensial əməkdaşlıq imkanları müzakirə olunub, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Rektor Şahin Bayramov universitetin regionun inkişafında oynadığı roldan, elm və sənaye əməkdaşlığının əhəmiyyətindən bəhs edib. Rektor sənaye parkı ilə birgə layihələrin həyata keçirilməsinin vacibliyini diqqətə çatdırıb. Ş.Bayramov bu cür əməkdaşlıqların Qarabağ Universitetinin tədris və tədqiqat fəaliyyətinə töhfə verəcəyini, eyni zamanda, tələbələrin istehsalat təcrübəsi və gələcək karyera imkanları baxımından faydalı olacağını qeyd edib.

Səfər zamanı nümayəndə heyəti Parkın rezidenti olan müəssisələrdə yaradılmış müasir istehsal prosesləri ilə yerində tanış olub. Onlara tətbiq olunan vergi güzəştləri, məhsul satışları və ixrac imkanları barədə də ətraflı məlumat verilib.

## Qarabağ Universiteti ABŞ-də keçirilən konfransda təmsil olunub

Qarabağ Universiteti ABŞ-nin Denver şəhərində keçirilən “AERA Annual Meeting 2025” konfransında təmsil olunub.

Konfransın “Azərbaycanda Təhsilin Transformasiyası: Qlobal Təhsil Diplomatiyası üçün Dərslər” adlı panel sessiyasında Qarabağ Universitetini Pedaqoji fakültənin dekanı Kəklik Gözəlova təmsil edib.

Sessiyada Azərbaycanda müəllimlərin peşəkar inkişafı sahəsində əldə olunan təcrübələr, yenilikçi yanaşmalar və bu təcrübənin beynəlxalq əməkdaşlıq üçün təqdim etdiyi perspektivlər müzakirə olunub.

Konfransda 96 ölkədən 15000-dən çox nümayəndə iştirak edib.



# ADNSU-da tələbələrin təşəbbüsü ilə “Cyber Club” açılıb



Mayın 5-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) tələbələrin təşəbbüsü ilə yaradılmış “Cyber Club”un açılış mərasimi keçirilib.

Tədbirdə ADNSU rektorunun sosial məsələlər üzrə müşaviri Nəsibə Əmirbəyova çıxış edərək klubun yaradılmasının əhəmiyyətindən söz açıb və tələbələrin bu təşəbbüsünü yüksək qiymətləndirib. O, kibertəhlükəsizliyin müasir dövrdə artan önəmini, bu sahədə mövcud riskləri və onlara qarşı effektiv müdafiə üsullarını qeyd edərək tələbələrə faydalı tövsiyələr verib.

Klubun prezidenti çıxışında klubun məqsədləri, tələbələr üçün yaradacağı imkanlar və gələcək hədəflər barədə iştirakçılara ətraflı məlumat verib.

Tədbirin qonaqları sırasında yer alan Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının (AKTA) icraçı direktoru Rauf Cabbarov da çıxış edərək şəxsi təcrübəsini və kibertəhlükəsizlik sahəsindəki təşəbbüslərini iştirakçılarla bölüşüb, universitetdə belə bir klubun yaradılmasını yüksək qiymətləndirib. Daha sonra sahənin peşəkar mütəxəssisləri öz bilik və tövsiyələrini tələbələrlə bölüşərək onları yalnız nəzəri deyil, həm də praktiki baxımdan kibertəhlükəsizlik sahəsində fəal olmağa təşviq ediblər.

Tədbirin sonunda tələbələr arasında interaktiv “quiz” yarışı təşkil olunub. Maraqlı və rəqabətli şəraitdə keçən yarışmanın qalibi müəyyənləşdirilərək mükafatlandırılıb.

ADNSU “Cyber Club” kibertəhlükəsizlik sahəsinə maraq göstərən gəncləri bir araya gətirərək onların bilik və bacarıqlarının inkişafına dəstək göstərməyi hədəfləyir. Klub bu sahədə yeni imkanların yaradılmasına və gələcəyin mütəxəssislərinin formalaşmasına töhfə verəcək bir təşəbbüs kimi qiymətləndirilir.

# Azərbaycanlı alimə böyük etimad

## Professor Mahirə Hüseynova BZT Turan Akademiyasının Türk Dünyası Alim Qadınlar Şurasının sədri seçildi



3 May Türk Millətçiliyi Günü münasibətilə Bakı şəhərində əlamətdar bir toplantı keçirildi. BZT Turan Akademiyası tərəfindən təşkil edilən bu önəmli tədbir Türk dünyasının elmi, mədəni və pedaqoji əməkdaşlığını daha da gücləndirməyi hədəfləyirdi.



Toplantıya Özbəkistanın 15-ə qədər nüfuzlu universitetindən - STARS Beynəlxalq Universiteti, Jurnalistika və Kütləvi Kommunikasiya Universiteti, Milli Tədqiqatlar Universiteti "Daşkənd İrriqasiya və Aqrotexnika Avtomatlaşdırma İnstitutu", Özbəkistan-Finlandiya Pedaqogika Universiteti, Səmərqənd Dövlət Xarici Dillər Universiteti, Buxara Dövlət Universiteti, Əbu Əli İbni Sina adına Buxara Dövlət Tibb İnstitutu, İslam Kərimov adına Daşkənd Dövlət Texniki Universiteti, Daşkənd Tibb Akademiyası, Vebster Universiteti (Daşkənd), Turin Politexnik Universiteti Daşkənd Filialı, Kokand Pedaqoji Universiteti, Daşkənd Əczaçılıq Universiteti və Daşkənd Dövlət İqtisadiyyat Universiteti daxil olmaqla 40-dan çox nümayəndə heyəti qatıldı. Türkiyə Cümhuriyyətindən də çoxsaylı elm adamları iştirak edərək bu tədbirə xüsusi önəm qatdılar.

Toplantı zamanı Özbəkistan Elm və Təhsil Nazirliyinin Məmun Universiteti və Ürgənc Dövlət Pedaqoji Universiteti tərəfindən irəli sürülən namizədlər arasından Azərbaycan Dövlət Pedaqoji Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru, professor Mahirə Hüseynova Türk Dünyası Alim Qadınlar Şurasının sədri seçildi.

Professor Mahirə Hüseynovanın illərdir Türk dünyasının elmi-mədəni əməkdaşlığı naminə göstərdiyi səylər bu yeni vəzifə ilə daha da ön plana çıxır.

Qeyd edək ki, 2019-cu ildən etibarən bir qrup gənc və təşəbbüskar akademik tərəfindən təsis edilən BZT Turan Akademiyası beynəlxalq konqreslər, simpoziumlar, təlimlər və elmi layihələr vasitəsilə bütün dünyadakı tədqiqatçıları bir araya gətirməyi əsas istiqamət olaraq müəyyən edib.

27 ölkədən 68-dən çox elmi qurumla tərəfdaşlıq edən Akademiya "Dildə, Fikirdə, Əməldə Birlik" ideyasını əsas hədəf kimi qəbul edərək Türk Dünyasının alimlərini ortaq tarix, dil və mədəniyyət dəyərləri ətrafında birləşdirməyə, elmi əməkdaşlığı gücləndirməyi qarşısına məqsəd qoyub. BZT Turan Akademiyası Türkiyə rəhbəri dr. Baha Ahmet Yılmaz, Azərbaycan rəhbəri dr. Niyaməddin Şükürov professor Hüseynova Mahirə Nağı qızına Türk Dünyası ziyalılarının inkişafına, əməkdaşlığına verdiyi töhfə üçün dərin minnətdarlıqlarını bildirərək dəyərli alimimizlə bir amal uğrunda bir yolda addımlamağı özlərinə şərəf bildiklərini söylədilər.



# "Yüksək Reytinqli Alimlər" siyahısında ilk sıralarda

## Mərkəzi Florida Universitetinin azərbaycanlı tədqiqatçısı uğura imza atıb

Mərkəzi Florida Universitetinin fəlsəfə doktoru və Günəş Enerjisi Araşdırmaları Mərkəzinin xüsusi layihələr üzrə tədqiqatçısı Nazim Muradov dünyanın məşhur elmi analitika platforması olan "Scholar GP"nin 2024-cü il üzrə "Yüksək Reytinqli Alimlər" siyahısında ilk sıralarda yer alıb. Onun məhsuldar elmi fəaliyyəti və bu sahədə verdiyi töhfələr yüksək reytinqə səbəb olub.

Nazim Muradov 1992-cı ildən hidrogen üzrə araşdırmalar sahəsində aparıcı tədqiqat mərkəzlərindən biri olan Günəş Enerjisi Araşdırmaları Mərkəzinin (FSEC) xüsusi layihələr üzrə tədqiqatçısıdır. O, NASA-nın tədqiqat qrupunun üzvü kimi "Space Shuttle Endeavour" ("Kosmik Gəminin Hazırlanması") missiyası zamanı uğurla sınaqdan keçirilən unikal hidrogen sensorunun hazırlanmasında iştirak edib. Görkəmli alimin təmsil olunduğu komanda "R&D100" mükafatına layiq görülüb.

"Yüksək Reytinqli Alim" adı mənim üçün böyük şərəfdir," - deyə Muradov söyləyib. O, bu mükafatı xüsusilə hidrogen enerjisi və texnologiyası sahəsində illər boyu aparılan elmi işlərin yüksək dəyərləndirilməsinin bir göstəricisi hesab etdiyini bildirib.

"ScholarGPS" elmi fəaliyyətin təhlili üçün ilk onlayn mənbədir. Bu platforma dünya üzrə bütün alimlərin, tədqiqat institutlarının, universitetlərin və akademik proqramların ilk tam kəmiyyət reytinqlərini yayımlayır. Bu unikal reytinqləri təqdim etməklə yanaşı, ScholarGPS 200-dən çox ölkədən 24.000-dən artıq akademik qurum, 30 milyondan çox alim və 120.000 tədqiqat institutunun hər biri üçün ətraflı profillər təqdim edir.

Qeyd edək ki, Nazim Muradov 2023-cü ildə "Tərəqqi" medalı ilə təltif olunub.

80 il sadəcə rəqəm deyil, elmə və təhsilə həsr olunmuş bir ömrün ifadəsi, böyük bir missiyanın və ülvi bir amalın salnaməsidir. Bu həyat yolu yalnız onu şəxsən tanıyanlar üçün deyil, eyni zamanda gələcək nəsillər üçün də əsl örnək olan bir alim və ziyalının həyat fəlsəfəsini ehtiva edir. Belə işıqlı ziyalılardan biri də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağsaqqallar Şurasının sədri, Riyazi analiz kafedrasının professoru, fizika-riyaziyyat elmləri dokroru, Əməkdar müəllim Məlikməmməd Saday oğlu Cəbrayılovdur. Səmimiyyəti, ali insani dəyərlərə sadiqliyi, prinsipiallığı, mükəmməl idarəetmə bacarığı və sanballı elmi uğurları ilə seçilən Məlikməmməd müəllim bir əsrdən artıq yaşı olan Pedaqoji Universitetin tədris həyatında silinməz iz qoymuş şəxsiyyətlərdən biridir. Onun ömür kitabının səhifələrini vərəqlədikcə xoşbəxt babanın, vəfalı ailə başçısının, minlərlə tələbənin zəkasını və mənəviyyatını formalaşdıran ustad müəllimin, məhsuldar elmi-pedaqoji fəaliyyət göstərmiş nüfuzlu alimin, yüksək əxlaq və fəzilət sahibi olan alicənab dostun, vətənpərvər ziyalının və el ağsaqqalının obrazı ilə qarşılaşırıq. Onun sədaqətlə, zəhmətlə, fədakarlıqla, amma eyni zamanda şərəf və ləyaqətlə yazılan 80 illik ömür kitabı gələcək nəsillərə örnək olacaq zəngin bir irsə çevrilib.Yaşanan bu ömrün ziyası minlərlə tələbənin qəlbində, elm və təhsil yolunda atdığı hər bir addımda iz qoyub. Pedaqoji ictimaiyyət onu görkəmli alim, öz xalqının milli-mənəvi dəyərlərinə sadiq, vətənpərvərliyi və vətəndaşlıq mövqeyi ilə seçilən, hər zaman haqqın və ədalətin tərəfində olan nüfuzlu şəxsiyyət kimi dəyərləndirir.

# 80 illik müəllim və alim ömrünun salnaməsi



### Ömür yolu

Məlikməmməd Saday oğlu Cəbrayılov 15 may 1945-ci ildə Hacıqabul (ovaxtkı Qazıməmməd) rayonunun Atbulaq sovetliyinin Qızılburun kəndində anadan olub. 1961-ci ildə Atbulaq kənd orta məktəbini, 1967-ci ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu (indiki ADPU) bitirib. Tələbəlik illərində ən yüksək tələbə təqaüdünə - Lenin təqaüdünə layiq görülüb, Tələbə Elmi Cəmiyyətinin fəal üzvlərindən biri kimi 1966-cı ildə Moskvada SSRİ tələbələrinin I Forumunda iştirak edib. İnstitutu fərqlənmə diplomu ilə bitirən M.Cəbrayılov universitetin Elmi Şurasının qərarı ilə Riyazi analiz kafedrasında assistent saxlanılıb. 1970-1974-cü illərdə aspirantura təhsili alıb. 1974-cü ildə "Çoxdəyişənli diferensiallanan funksiyalar nəzəriyyəsinin bəzi məsələləri" mövzusunda professor Əli Cəfərovun rəhbərliyi ilə namizədlik dissertasiyası (fəlsəfə doktorluğu) müdafiə edib, riyaziyyatçı alim kimi yetişib, az müddətdə bu sahədə səlahiyyətli söz sahibinə çevrilib. Etiraf edək ki, həmin illərdə Azərbaycanda digər elm sahələrində olduğu kimi, riyaziyyat sahəsində də çox böyük canlanma var idi. Azərbaycanda İttifaq alimlərinin də hesablaşdıqları Zahid Xəlilov, Əşrəf Hüseynov, İbrahim İbrahimov, Məcid Rəsulov, Maqsud və Mais Cavadovlar, Cəlal Allahverdiyev, Fərəməz Maqsudov, Mirabbas Qasımov, Arif Babayev, Həşim Ağayev, Bəylər Ağayev, Əli Cəfərov kimi tanınmış riyaziyyat alimləri elmi-pedaqoji fəaliyyət göstərirdilər. Məlikməmməd müəllim qədirşünas ziyalı kimi onun elmi taleyində mühüm rol oynayan, riyaziyyatçı alim kimi formalaşmasında xidmətləri olan Azərbaycan EA-nın müxbir üzvü, professor Maqsud Cavadovu, professor Həşim Ağayevi, dosent Bəhram Yusifzadəni, professor Əli Cəfərovu daim sevgi və rəğbətlə yad edir, böyük ehtiramla xatırlayır. Həmin ziyalıların ona qarşı yüksək tələbkarlığı, həssaslığı, insanpərvərliyi, xeyirxahlığı və alicənablığı M.Cəbrayılovun yaddaşında silinməz izlər buraxıb, onun tanınmış alim-şəxsiyyət kimi yetişməsinə ciddi təsir göstərib.

### Elmi-pedaqoji yüksəliş yolu

Məlikməmməd müəllim layiq olduğu məqama pillə-pillə ucalıb. ADPU-nun Riyazi analiz kafedrasında müəllim, baş müəllim (1967-1980), dosent (1980-1991) vəzifələrində işləyib, uzun müddət Riyaziyyat fakültəsinin dekan müavini olub. 1998-2012-ci illərdə Riyazi analiz kafedrasına rəhbərlik edib. 1989-1996-cı illərdə ADPU-nun qiyabi təhsil üzrə prorektoru, 1996-2017-ci illərdə tədris işləri üzrə prorektoru vəzifəsində çalışmaqla universitetdə təhsil-tərbiyə prosesinin yüksək səviyyədə təşkilində, kollektivdə sağlam mənəvi mühitin yaradılmasında, müasir dövrün tələbinə uyğun müəllim kadrları hazırlığında mühüm xidmətlər göstərib.

### Ali pedaqoji təhsil standartlarının hazırlanmasında iştirak

Məlikməmməd müəllim ali pedaqoji təhsilin təşkilində və idarə edilməsində zəngin təcrübəyə, səriştəyə və idarəetmə qabiliyyətinə malik alimdir. 1989-1916-cı illərdə Təhsil Nazirliyi tərəfindən ali pedaqoji məktəblər üçün hazırlanan elə bir normativ sənəd tapmaq olmaz ki, Məlikməmməd müəllim işçi komissiyasının üzvü kimi həmin sənədin yazılmasında iştirak etməsin, təklif və tövsiyələrini bildirməsin. O, 1989-1992-ci illərdə Azərbaycanda müəllim kadrları hazırlığını həyata keçirən ali məktəblərin Elmi Metodiki Birləşməsinə, 2006, 2009 və 2012-ci illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Dövlət Təhsil Proqramlarını (Dövlət standartları) hazırlayan işçi qrupuna rəhbərlik edib, uzun müddət Fasiləsiz Pedaqoji Təhsil üzrə Koordinasiya Şurasının sədr müavini olub.

### Elmi uğurların sirri: zəhmət və fədakarlıq

Riyaziyyat elminə 70-ci illərdə çox dəyişənli diferensiallanan funksiyalar nəzəriyyəsinin bəzi məsələlərini araşdırmaqla gələn Məlikməmməd müəllim Pedaqoji Universitetdə rəhbər vəzifələrdə işləməklə yanaşı elmi axtarışlarını davam etdirib, SSRİ-nin müxtəlif şəhərlərində ixtisasartırma kurslarında olub, məşhur riyaziyyatçı alimlərin mühazirələrini dinləyib, onların elmi seminarlarında iştirak edib, tədqiq etdiyi problemlə bağlı maraqlı təqdimatlar edib, Azərbaycanın və Rusiyanın nüfuzlu elmi jurnallarında məqalələr dərc etdirib. Elmi-metodiki sahədəki xidmətlərinə görə SSRİ Ali Attestasiya Komissiyası tərəfindən professor elmi adına layiq görülüb. Bu sahədə özünü tam təsdiq etdikdən sonra 1998-ci ildə "Vektorqiymətli funksiyalar üçün Besov fəzalarında daxilolma teoremləri və onların operator-diferensial tənliklərə tətbiqləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

Tədqiqatlarında riyaziyyat elmi üçün vacib bir problem - bir sinif anizotrop diferensial operator tənliklərin tədqiqi ilə bağlı meydana gələn vektorqiymətli funksiyalardan ibarət Besov-Nikolski fəzalarının struktur xassələri öyrənilib, həmin fəzalarda, həmçinin vektorqiymətli Sobolev-Liuvill fəzalarında daxilolma kəsilməzliyi, çəkili halda isə kompaktlığı araşdırılıb, aproksimasiya ədədləri qiymətləndirilib. Aldığı nəticələrin tətbiqi ilə müəyyən sinif operator əmsallı diferensial tənliklər üçün sərhəd məsələsinin koersitiv həllinin varlığını isbat edib, baş hissəni öz-özünə qoşma olmayan diferensial operatorların rezolventasının qiymətləndirilməsi ilə bağlı nəticələr alıb. Onun aldığı elmi nəticələr görkəmli riyaziyyatçı-akademiklər S.M.Nikolski, M.K.Potapov, V.A.İlin, M.Qorbaçuk tərəfindən yüksək qiymətləndirilib. Professor M.K.Potapov dissertasiyaya yazdığı rəydə tədqiqat predmetinə çevrilən problemin hələ 1927-ci ildə Xardi və Litlvud kimi alimlər tərəfindən işlənməsinə toxunaraq qeyd etmişdir ki, "M.Cəbrayılov bir sıra ciddi çətinliklərlə qarşılaşsa da, nəticədə öz məqsədinə nail olmuş, riyaziyyat elminin məşğul olduğu bu sahəyə öz töhfəsini vermişdir".

### Pedaqoji və elmi-pedaqoji kadr hazırlığına töhfə

Professor M.Cəbrayılov 60 ilə yaxındır ki, Pedaqoji Universitetin auditoriyalarında gələcək riyaziyyat müəllimlərinə elmlərin şahı olan riyaziyatın sirlərini öyrədir, magistrant və doktoratlarda elmi-tədqiqat bacarıqlarınn formalaşmasına rəhbərlik edir. Peşəkarlığı, tələbkarlığı və intellektual potensialı ilə seçilən Məlikməmməd müəllim hər bir iddiaçının elmi maraqlarına həssaslıqla yanaşır, onların elmi inkişaf yolunda qarşılaşdıqları çətinliklərə bələdçilik edir. O, dəfələrlə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda namizədlik (fəlsəfə doktorluğu) və doktorluq dissertasiyalarının müdafiəsini keçirən birdəfəlik şuraların sədr müavini olub, rəsmi opponent və rəyçi kimi çıxış edib. 2009-cu ildən ADPU-nun nəzdində fəaliyyət göstərən ümumi pedaqogika, pedaqogika və təhsilin tarixi, təlim və tərbiyənin nəzəriyyəsi və metodikası ixtisasları üzrə Dissertasiya Şurasının üzvüdür. Hazırda həm də riyaziyyatın tədrisi metodikası ixtisası üzrə elmi seminarın sədridir. Onun elmi rəhbərliyi ilə 8 nəfər riyazi analiz və riyaziyyatın tədrisi metodikası ixtisasları üzrə fəlsəfə doktoru, 1 nəfər elmlər doktoru elmi dərəcəsi alıb, 3 nəfər fəlsəfə doktoru dərəcəsi almaq üçün dissertasiya işlərini müdafiəyə təqdim edib. İndiyə kimi 21 nəfər tədqiqatçıya rəsmi opponent kimi xeyir-dua verib, onlarla dissertasiyanın avtoreferatına, dərslik və dərs vəsaitinə təqdiredici rəy yazıb.

### Zəngin elmi irs

Professor M.Cəbrayılov uzun illər idarəetmə sahəsində çalışmasına baxmayaraq həmişə alimlik, tədqiqatçılıq və müəllimlik missiyasına sadiq qalıb, zəngin və məhsuldar yaradıcılığı ilə seçilib. İndiyə kimi onun 1 monoqrafiya, 11 dərs vəsaiti, 2 metodik vəsaiti, Azərbaycan, Rusiya və Ukrayna Elmlər Akademiyalarının Xəbərlərində və digər nüfuzlu elmi jurnallarda 120-dən artıq elmi və metodiki məqaləsi dərc olunub. "Ədədi üsullardan mühazirələr" (1989), "Metrik fəzalar və çoxdəyişənli funksiyaların diferensial hesabı" (1982), "Metrik və normalı fəzalar. Xətti operatorlar" (2004), "Riyazi analiz" (diferensial hesabı) (2006, 2010) və "Riyazi analiz" (inteqral hesabı) (B.Əliyevlə birlikdə) (2016) dərs vəsaitləri gələcəyin riyaziyyat və informatika müəllimlərinin ən çox istifadə etdiyi dəyərli mənbələrdən biridir.

Ali pedaqoji məktəblərdə riyazi analizin tədrisinin aktual problemləri ilə ciddi məşğul olan professor Məlikməmməd Cəbrayılov dəfələrlə Rusiyanın müəllim hazırlığı ilə məşğul olan ali məktəblərində uzunmüddətli elmi ezamiyyətlərdə olub, təcrübə mübadiləsi aparıb, Moskva Pedaqoji Universitetinin əməkdaşları ilə birlikdə 2 hissəlik "Riyazi analiz" (Moskva, 2005, 2006) kitabının nəşrinə nail olub. Kitab Rusiya Təhsil Nazirliyinin qrifi ilə dərs vəsaiti kimi təsdiq edilib. O, uzun illərdir ki, "ADPU-nun xəbərləri" məcmuəsinin redaksiya heyətinin üzvüdür. Ali pedaqoji təhsilin və riyazi analizin tədrisinin aktual problemləri ilə bağlı Bakı, Ankara, Kiyev, Moskva, Odessa, Düşənbə, Kaluqa, Saratov, Teberda, Voronejdə keçirilən beynəlxalq və respublika səviyyəli konfransların iştirakçısı olub. "Ömür boyu təhsil" layihəsi çərçivəsində Sankt-Peterburq, Roma, Afina, Tirana, Lissabon, Barselona, Stokholm, Kopenhagen, Oslo, Helsinki, Tallin şəhərlərində keçirilən konfrans və treninqlərdə iştirak edib.

### Alim və müəllim əməyinin dəyərləndirilməsi

Professor M.Cəbrayılovun elmi-pedaqoji və ictimai fəaliyyəti həmişə yüksək qiymətləndirilib. 26 dekabr 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə ona Əməkdar müəllim fəxri adı, 17 dekabr 2021-ci il Sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeni verilib. Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayevin 26 oktyabr 2023-cü il tarixli əmri ilə "Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illiyi (1921-2021)" yubiley medalı ilə təltif olunub. O, ayrı-ayrı vaxtlarda "Rəşadətli əməyə görə" medalı (1970), Təhsil Nazirliyinin Kollegiyasının qərarı ilə "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı (2006), Təhsil Nazirliyinin, ADPU rəhbərliyinin, müxtəlif təhsil təşkilatlarının diplom və Fəxri fərmanları ilə təltif edilib. Elm və təhsil sahəsində qazandığı uğurlara görə 2002-ci ildə Moskvada fəaliyyət göstərən Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü seçilib.

### Ömrün yaddaqalan günləri

Professor M.Cəbrayılovun elmi və pedaqoji bioqrafiyasının bəzəyi olan bu faktlar onun 80 illik ömür payının yaddaqalan anlarıdır. Xeyirxahlıqda səmimi və təmənnasız olan Məlikməmməd müəllim saf mənəviyyat, yüksək mədəniyyət sahibidir. Onun böyüklüyünün, fəzilətinin gücü sadəliyindədir. Onunla həmsöhbət olan hər kəs sanki istirahət edir, dincəlir, yüngülləşir, mənəvi cəhətdən zənginləşir. Çoxşaxəli fəaliyyəti ilə universitetimizdə rektor professor Cəfər Cəfərovun rəhbərliyi ilə həyata keçirilən islahatlara töhfə verir, yaşlı nəsil ilə gənc nəsil arasında mənəvi bir körpü rolunu oynayır.

### 9-cu onilliyiniz mübarək!!!

Professor M.Cəbrayılovun 80 illik ömür yoluna nəzər salarkən görürük ki, onun həyatı, fəaliyyəti və yaşam tərzi elinə, obasına, ailəsinə, seçdiyi ixtisasına sadiqliyin nümunəsidir. Onun 80 illik örnək həyatı, təhsil və elmdə qazandığı uğurlar ömrünün naxışları və ən parlaq göstəriciləridir. O, ömrünün müdriklik çağında da ADPU-nun Riyazi analiz kafedrasının professoru kimi pedaqoji fəaliyyətini davam etdirir, tələbələrinin və övladlarının uğurlarını bölüşür, nəvələrinin qayğısına qalır, onların sevinclərini bölüşməklə bənzərsiz rahat bir ömür yaşayır.

Gözəl insan, görkəmli alim, ustad müəllim, etibarlı dost kimi bütün gözəlliklərə layiq olan professor Məlikməmməd Cəbrayılova bundan sonrakı həyatında və elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayaraq deyirik: 9-cu onilliyiniz mübarək!

**Fərrux RÜSTƏMOV,**
*ADPU-nun İbtidai təhsilin pedaqogikası kafedrasının müdiri, pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi*

# Həyatının ən böyük macərasını təhsil tələbə krediti sayəsində yaşadı



**Sevda Hüseynlinin şans üzünə gülüb. Əvvəlcə Turizm və Menecment Universitetinin tələbəsi olmaq imkanı qazanıb. Sonra təhsilini davam etdirə bilmək üçün təhsil tələbə kreditindən xəbər tutub. Bununla da nəinki Azərbaycanda universitet təhsili almaq istəyini təmin edib, hətta anasının onun xaricdə təhsil alması ilə bağlı arzusunu belə reallaşdırıb, xaricdə təhsil almaq imkanı qazanıb.**

"Hazırda İspaniyada Erasmus proqramı ilə tam təqaüdlü təhsil alıram və bu yol mənim üçün həyatımın ən böyük macəralarından biridir", - deyən Sevda bu böyük macəraya da məhz təhsil tələbə krediti sayəsində nail olub: "Erasmus proqramında təhsil almağım təhsil tələbə krediti ilə reallaşmır. Amma təhsil tələbə krediti sayəsindədir. Çünki təhsil tələbə krediti ala bilməsəydim, nə universitet təhsilimi tamamlayacaqdım, nə də bu proqrama qəbul olunacaq, indi burada olmayacaqdım".

Sevdanı xoşbəxt tələbəliyə aparan erkən yaşlarından qarşısına qoyduğu hədəf və məqsədyönlü fəaliyyət olub: "Həyatı, özümü dərk edəndən bəri işləyirəm və bu illər ərzində həm turizm, həm də təhsil sahələrində çox maraqlı və dəyərli təcrübələr qazandım".

İlk təhsilini UNEC nəzdində Qida Sənayesi Kollecində "Marketinq" ixtisası üzrə alan Sevda Hüseynli hazırda Turizm və Menecment Universitetində "Menecment" ixtisasına yiyələnir. İngilis dilinə böyük marağı olduğunu deyir: "İxtisasım üçün lazım olmasa da, hələ orta ixtisas təhsili alandan ingilis dili biliklərimi inkişaf etdirməyə başladım. Harada olmağından asılı olmayaraq, hər hansı əlavə dildə danışıq bacarığı üstünlükdür. IELTS sertifikatı da daxil olmaqla, ingilis dili üzrə müxtəlif diplomlarım var. Yüzlərlə gəncə ingilis dilini öyrənməkdə kömək etdim və bu gün də iki fərqli dil kursu ilə əməkdaşlıq edirəm".

Sevda Hüseynli təhsili üçün dövlətdən olduğu kimi, ailəsindən də böyük dəstək alıb: "Hər zaman özümə inanmışam və öz yolumu seçmişəm və yaxşı ki, ailəm hər zaman mənim fikirlərimi dəstəkləyib".

S.Hüseynli sözlərinə əlavə edərək deyir: "Əsas məqsədim, başlıca prinsipim maliyyə azadlığına nail olmağımdır. Hazırda ödənişli əsaslarla təhsil alıram və ödənişlərimi də özüm edirəm, başqa sözlə, sadəcə özümə güvənərək təhsil alıram. Bu baxımdan, Təhsil Tələbə Krediti Fondunun dəstəyi ilə ödənişimi təmin etmək mənim üçün böyük fürsət oldu. Yaxşı ki, ölkəmizdə gənclərə, tələbələrə bu cür fürsətlər yaradılıb və nə yaxşı ki, fürsətlərdən birindən - təhsil tələbə krediti ilə oxumaq imkanından mən də yararlandım".

Təhsil tələbə krediti ilə qazandığı və "həyatının ən böyük macərası" adlandırdığı İspaniyada təhsilə gəlincə, Sevda Hüseynlinin fikrincə, fərqli mədəniyyətlər insanın inkişafına daha çox təsir edir: "Azərbaycanda da təhsil çox yaxşıdır, amma inancım budur ki, fərqli mədəniyyətlər və təcrübələr insanın inkişafına daha çox təsir edir. Hər zaman yeniliklərə açıq olmuşam, fərqli iş təcrübələri, könüllülük proqramları və s. karyera planlamamda çox kömək olub. Düşünürəm ki, bu təcrübələr həm mənim, həm də ölkəmin gələcəyinə böyük töhfə verəcək. Erasmus proqramını bitirdikdən sonra ölkəmə qayıdıb burada qazandığım bilikləri tətbiq edəcəyəm".

Sevda gələcəklə bağlı böyük planlar qurub: "Magistr və PhD təhsillərimi Avropada davam etdirməyi, öyrəndiklərimi ölkəmizdə uğurla tətbiq etməyi planlaşdırıram".

Onun yolu hələ uzundur: "Qarşımda hər gün yeni fürsətlər açılır, hər günüm bir təcrübə deməkdir. İnanıram ki, istədiklərimə çatmaq üçün gücüm var və bu yolda irəliləyəcəyəm".

Yaşıdlarına da onun qədər qətiyyətli, məqsədyönlü olmağı tövsiyə edir: "Düşünürəm ki, mənim əldə etdiklərimə başqaları da nail ola bilər. Məsələn, çox fəal şəkildə könüllülük fəaliyyətinə qoşulmuşam. Formula 1, COP29 və başqa böyük tədbirlərin fəal iştirakçısı olmuşam. İndi də fürsət olduqca könüllülük fəaliyyətlərində iştirak edirəm. Məncə, insanın hədəfinə çatmağı üçün əsas olan özünəinamı, çətinliklərə qarşı durmağı və heç vaxt geriyə baxmamağıdır.

**Ruhiyyə DAŞSALAHLI**




# "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalından "Konstitusiya və Suverenlik İli"nə elmi töhfə

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin elmi-metodik nəşri "Azərbaycan dili və ədəbiyyat tədrisi" jurnalı "Dil siyasəti və milli kimlik: Tarixi irs, müasir yanaşmalar" adlı xüsusi buraxılışını elmi ictimaiyyətin diqqətinə təqdim edir.

Xüsusi buraxılış, Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən hazırlanıb və bu əlamətdar tarixə həsr olunub.

Buraxılışda Azərbaycan dilinin hüquqi statusunun qorunması, dövlət dili kimi mövqeyinin möhkəmləndirilməsi, milli kimliyin əsas rəmzi olaraq əhəmiyyətinin vurğulanması ilə yanaşı, dil siyasətinə dair müxtəlif yanaşmalar elmi müstəvidə araşdırılıb, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dilinin inkişafına verdiyi əvəzsiz töhfələr, Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ana dilimizin inkişafına göstərdiyi xüsusi diqqət və qayğı, həmçinin dilimizin saflığının qorunması, yad təsirlərdən mühafizəsi, təhsil sistemində düzgün tədrisi və ictimai mühitdə istifadəsi ilə bağlı aktual məsələlərə elmi baxış bucağından yanaşılıb.

Xüsusi buraxılış tədqiqatçılar, təhsil işçiləri, o cümlədən müəllimlər, tələbələr, ana dilinin qorunması və inkişafını öz vətəndaşlıq və mənəvi məsuliyyəti kimi dəyərləndirən oxucular üçün faydalı elmi materiallar təqdim edir.

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-64-00
**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 3207 **Sifariş** 965
**Məsul növbətçi:** O.Mustafayev



# Etibarsız sayılır



**Naxçıvan Universiteti** (Bakı şəhərində yerləşən özəl) tərəfindən 1998-ci ildə Vəlәdov Emin Azər oğluna verilmiş A-027173 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 1 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Ağalarov Müseyib Cavanşir oğluna verilmiş E-078373 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 193 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Səmədova Nailə Natiq qızına verilmiş A-383370 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 240 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Abbaslı İlyas İdris oğluna verilmiş E-365462 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Biznes Universiteti** tərəfindən 2024-cü ildə Əkbərli Jalə Samir qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1990-cı ildə bitirmiş Qasımova Rəna Vaqif qızına verilmiş AK-666675 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 135 nömrəli tam orta məktəbin VIII sinfini 1983-cü ildə bitirmiş İmanov Balaoğlan Sədətxan oğluna verilmiş A3-II-584607 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Sənaye-Pedaqoji Texnikumu** (indiki ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollec) tərəfindən 2009-cu ildə Salmanova Aynur İsmayıl qızına verilmiş BB-II-092567 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Çahar kənd tam orta ümumtəhsil məktəbi 2009-cu ildə bitirmiş Qocazadə Gültən Rauf qızına verilmiş B-624733 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 211 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Abdullayev Rövlan Riad oğluna verilmiş E-550791 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 83 nömrəli məktəb-liseyi 2019-cu ildə bitirmiş Mehdi-zadə Nəzrin Samir qızına verilmiş E-205139 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2015-ci ildə Kərimduxt Ruslan Elxan oğluna verilmiş C-030358 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Beyləqan rayon** I Şahsevən kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Camallı Cabbar Mürşüd oğluna verilmiş A-534533 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2009-cu ildə verilmiş B-665279 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şahağac kənd orta məktəbin VIII sinfini 1979-cu ildə bitirmiş Rzayeva (Mürsəlova) Firəngiz Veysəl qızına verilmiş 849431 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 135 nömrəli tam orta ümumtəhsil məktəbi 2017-ci ildə bitirmiş Soltanlı Sənan İmdat oğluna verilmiş E-030912 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Müəllimlər İnstitutu** tərəfindən 2015-ci ildə Həsənova Aysan Dadaş qızına verilmiş A-063634 nömrəli bakalavr diplomu və diploma əlavə tapıldığı üçün etibarlı sayılır.

**Culfa rayon** Bənəniyar kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Abbasova (Rzayeva) Elnurə Alim qızına verilmiş A-608860 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 75 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Dövlətova Nigar Eldar qızına verilmiş A-242334 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Şəkərbəy kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Muxtarov Azər Fərrux oğluna verilmiş 464074 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 55 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Zülfüqarova Fidan Mahmud qızına verilmiş B-133485 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Nadirkənd kənd tam orta məktəbin VIII sinfini 1986-cı ildə bitirmiş İsmayılov Üzeyir Talış oğluna verilmiş 093731 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Borsunlu kənd 2 nömrəli tam orta məktəbi 2001-ci ildə bitirmiş Quliyev Qədim Afiq oğluna verilmiş A-552352 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Todan kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Nəbiyeva Süsən Fərhad qızına verilmiş A-084350 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Barlı qəsəbə tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Adıgözəlova Raisa Teymur qızına verilmiş A-502808 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 45 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Abdullayev Azər Kamil oğluna verilmiş A-099438 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 99 nömrəli tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Aslanov Rəfayil Feyzulla oğluna verilmiş əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 5 nömrəli ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Əliyev İmran Böyükxan oğluna verilmiş 848679 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Maşlıq kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Novruzova (Adıgözəlova) Əfsanə Telman qızına verilmiş B-597531 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Göytəpə şəhər 1 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1999-cu ildə bitirmiş Paşayeva Pərvin Oqtay qızına verilmiş 272271 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaküçə kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Məlikov Tural Fayil oğluna verilmiş A-594811 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 240 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Məhərrəmov Əli Köçəri oğluna verilmiş A-114844 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Kolleci** tərəfindən 2017-ci ildə Hacıyeva Zeynəb Nəcəf qızına verilmiş AA-088776 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Banbaşı kənd tam orta ümumtəhsil məktəbi 1992-ci ildə bitirmiş Əhmədov Nicat Əhməd oğluna verilmiş A-279165 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Əhmədli kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2013-cü ildə bitirmiş Ağazadə Əfsanə Əliqadir qızına verilmiş A-311229 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Xırdalan şəhər 2 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Hüseynov Mirmövsüm Zaur oğluna verilmiş E-622977 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Sadıqlı kənd tam orta məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Mahmudova Fidan Tahir qızına verilmiş A-125001 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Qida Sənayesi Kolleci** tərəfindən 2011-ci ildə Zayirova Fatimə Əbülfəz qızına verilmiş AA-004539 nömrəli subbakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 299 nömrəli məktəb-liseyi 2005-ci ildə bitirmiş Həsənova (Hüseynli) Nərmin Şirvanzadə qızına verilmiş B-185584 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 243 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Məmmədli Abbas Səməd oğluna verilmiş E-364663 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** Zəngənə kənd tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Rüstəmov Müslüm Mazan oğluna verilmiş AK-560855 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 33 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Tahirov Talib Qurban oğluna verilmiş A-345407 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 1 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Əskərova (İbrahimova) Günel İmaməddin qızına verilmiş 461692 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 100 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Fərəcova Gülnar Nizami qızına verilmiş B-316053 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**ADA Universiteti** tərəfindən 2020-ci ildə Şirinova Nəzrin Niyazi qızına verilmiş C-058063 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 21 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Əhmədli Elnur Faiq oğluna verilmiş E-414176 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 4 nömrəli tam orta məktəbi 2023-cü ildə bitirmiş Mütəllimov Kənan Sədyar oğluna verilmiş E-589923 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə şəhər** 6 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Mənsimova (Məmmədova) Aynurə Çingiz qızına verilmiş B-059869 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universiteti** tərəfindən 2024-cü ildə Ocaqverdiyev Vəzir Zamin oğluna verilmiş C-214484 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dillər İnstitutu** tərəfindən 2003-cü ildə Mürsəlova Günel Rafiq qızına verilmiş A-122682 nömrəli bakalavr fərqlənmə diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Rzayeva Leylafər Azər qızına verilmiş E-629917 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Mühəndislik Universiteti** tərəfindən 2020-ci ildə Əfəndiyev Aydın Vasif oğluna verilmiş C-078561 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.